**Şahnaz Şahin**

# *Şuşa haqqı*

**Bakı - 2022**

**Redaktor və ön sözün müəllifi:** **Şəfəq Nasir**
*Filologiya üzrə fəlsəfə doktoru, yazıçı-publisist*

**Şahnaz Şahin,**
***"Şuşa haqqı"***
***Bakı, «İMZA» nəşrlər evi, 2022, 96 səh.***

*Şair-esseist Şahnaz Şahinin son illər yaradıcılığının başlıca mövzusu, müharibənin insanlara yaşatdığı faciələr, ağrı-acılar, torpaqlarımızı işğaldan azad edən igid oğullarımızın qəhrəmanlığı, şəhidlərin öz qısa ömürlərində dastanlara sığmayan həyatı, qələbənin doğurduğu sevinc, zəfərimizin təntənəsi olmuşdur. Müəllifin "Sabirabad şəhidləri" (2020), "Zəfər nəğmələri" (2021) kitablarından sonra ərsəyə gətirdiyi "Şuşa haqqı" xalqın milli ruhunun, gənclərin vətənpərvərlik hissinin yüksəlməsində həyati yaşamlar bədii detal-təsvirlərilə daha təsirli və zəngindir. Kitab geniş oxucu kütləsi üçün nəzərdı tutulmuşdur.*

**İSBN 978-9952-37-440-1**

**© Şahnaz Şahin - 2022**



Şair-esseist ŞAHNAZ ŞAHİN (Şahnaz Feyzulla qızı Babayeva) çağdaş Azərbaycan ədəbiyyatının istedadlı nümayəndələrindəndir. Azərbaycan Yazıçılar, Azərbaycan Jurnalistlər Birliklərinin üzvü, 2019-cu ildə Prezident mükafatına, 2018-ci ildə

Beynəlxalq Rəsul Rza mükafatı laureatı adına layiq görülmüşdür.

"Ürəyimə düşən işıq" (2005), "Bu şəkil mənə bənzəmir" (2010), "Mübariz" (2011), "Seyid Umu xanım və beş kimsənə ocağı" (2011), "O sözəcən..." (2017), "Xocalının sərvəri" (2020), "Sabirabad şəhidləri"(2021), Zəfər nəğmələri" (2021) kitablarının müəllifidir.

"ŞUŞA HAQQI" müəllifin sayca doqquzuncu kitabıdır. Kitaba müəllifin müxtəlif mövzuda yazdığı şeirləri və "Şuşa haqqı", "Zəfər nəğmələri", "Mübariz" olmaqla üç poeması daxil edilmişdir.

# ƏDƏBİ OVQATIMIZDA QARABAĞ ZƏFƏRİ

*(Şahnaz Şahinin "Şuşa haqqı"na ədalət haqqı)*

Son illər ədəbiyyatımızda – nəsrdə və poeziyada, publisistikada, eləcə də ədəbi tənqiddə aparıcı mövzulardan olan müharibə, onun xalqımıza yaşatdığı ağrılar, igid oğullarımızın, şəhidlərimizin dastanlara sığmayan qəhrəmanlığı, qələbə sevincini, zəfərimizi əks etdirən əsərlər cəmiyyətdə maraqla qarşılanır. Böyük Vətən savaşında yurd sevgisi, torpaqlarımızı işğaldan azad etmək istəyi, inadı və inamı şir ürəkli oğullarımızı səfərbər etdi. Xalqın milli ruhu yüksəldi. Axı 30 il işğal altında olan yaşayış məskənlərimizin həsrətini çəkmişdik. Elə bu səbəbdən də 44 günlük Böyük Vətən savaşında biz hamımız qarabağlı olduq, ürəyimiz o səfalı yerləri, dilbər guşələri azad görmək intizarı ilə alışıb yanırdı. Ölüm-dirim savaşında erməni qəsbkarlarıyla vuruşan igidlər, torpaqlarımızın azadlığı uğrunda canını fəda etmiş şəhidlər hamımızın doğmasına, əzizinə çevrildi. Xalq cəbhə bölgələrindən gələn xəbərləri, qələbəyə, zəfərə aparan döyüşləri həyəcanla, coşquyla izləyirdi. Kəndlərimizin, şəhərlərimizin işğaldan

azad olunması xalqın qələbəyə inamını yüksəldirdi. Rəşadətli Ordumuz qəhrəmanlıq tariximizin yeni səhifəsini yazırdı...

Bu gün Vətən mövzusundan bəhs edən hər növ və janrda dəyərli əsərlər yazan müəlliflərin yaradıcılığı, sözün həqiqi mənasında rezonans doğurur. Belə müəlliflərdən biri, şair, esseist Şahnaz Şahin az bir vaxtda II Qarabağ müharibəsində işğal altında olan torpaqlarımızın azadlığı uğrunda döyüşlərdə canlarından keçərək şəhidlik mərtəbəsində qərar tutmuş igid oğullarımızın həyat yolundan bəhs edən çoxlu sayda poetik əsərlərini, "Sabirabad şəhidləri" (2021), "Zəfər nəğmələri" (2021) kitablarını ərsəyə gətirdi. 44 günlük müharibənin qəhrəmanları, cəsur oğullarımızın vətən sevgisi, əfsanəyə çevrilmiş igidlikləri, qələbə sevinci, zəfərimiz Şahnaz Şahinin yaradıcılığında böyük əzəmət və coşquyla tərənnüm olunmuşdur.

Şahnaz Şahin son bir neçə ildə mətbuatda, sosial mediada poetik əsərləri, esseləri ilə ən çox çıxış edən qadın yazarlarımızdandır. Lakin məsələ heç də bu əsərlərin kəmiyyətində deyil, çoxlarının müraciət etdiyi mövzulara şairin yeni, fərqli mövqedən yanaşmasındadır. Əsərlərində təsvirə gətirdiyi hadisələri təxəyyülündən keçirməsi,

özünün də bir növ bu hadisələrin içərisində olmasıdır. Obrazların mənəvi aləmini duyması, hər birinə həssaslıqla yanaşması, yaradıcılığının əsas leytmotividir. Şair bədii sözün siqlətini dərk etdiyindən poetik rənglərdən yerində xəsisliklə, həm də məqamında istifadə etməyi bacarır...

Yazı masamın üstündə şairin Şuşa ilinə həsr etdiyi "Şuşa haqqı" kitabı var. Adətən, hansısa bir kitab haqqında ilk söz oxucuya tanıtım məqsədilə istiqamət verir, əsərləri ümumiləşdirilmiş şəkildə təqdim edir. Mənə gəlincə, ilk olaraq kitabın adı, sonradan oxuduğum poetik əsərlərə qəribə bir məhrəmlik, bu əsərlərə təhlil-tədqiq prizmasından yanaşmağıma vəsilə oldu.

"Şəhid əsgər" şeiri ilə açılan poetik əsərdə müharibədə aslan kimi döyüşərək şəhid olmuş igid(lərimiz)in obrazı yaradılıb. Şair qəhrəmanı bir epizodda həyat eşqi gözündə parlayan, ağır döyüşlərdən qalib çıxaraq, canı qədər sevdiyi torpağın üstündə mışıl-mışıl yatan əsgər kimi təsvir edib. Digər epizodda isə qəhrəman torpağı yorğan kimi üstünə çəkib, əbədi yuxudadır. Şeirdə bədii təsvir pafosdan, vay-şivən, qışqırıqdan uzaq, həzin bir duyğunun düşüncədə oyatdığı qürur timsalındadır: **...bir əsgər uzanıb yerdə... sevdiyi torpağın üstə, yatır körpə kimi məsud..., Torpa-**

**ğı çəkib üstünə yatır rahat, məsud və günahsız bir körpə misallı..."** Poetik bənzətmənin rəngləri sözün məna çalarlarında əks olunur: Buludların ümid, günəşin sevgi göndərdiyi şəhid əsgərin hüzurunda, "dağlar, yollar, çiçəklər" təzim edir...

Şairin müharibə mövzusunda yazdığı başqa bir şeirində isə tüstü, barıt qoxusu ürəkləri "lərzəyə"gətirir. "Müharibəyə şeir yazmayın", deyən şair, müharibənin dünyanın ürəyində açdığı yaralardan yazıb. Mənə görə, bu poetik əsər son illər ədəbiyyatımızda müharibə haqqında yazılmış ən ağrılı bir şeirdi. Burda insanın, təbiətin obrazı fərqlidir, yenidir. İdeyanı aydınladan əsas obraz isə şairin canlı varlıq kimi təqdim etdiyi Dünyadır...

***Dünya müharibəyə getdi,***
***İndi***
***damı uçur başına,***
***evi yıxılır dünyanın...***

Deyir, "Dünyanın arzuları bombalanır, yanıb kül olur, yıxılmış yuvalardan ah qalxır göylərə". Nə qədər obrazlı deyilsə də, indi dünya gerçək-

dən bu durumdadır. Müharibə yer üzündə yaşayan bütün canlıların rahatlığını pozub, arzular, ümidlər tar-mar olub. Belə davam edərsə, o, məhvə məhkumdur. Müharibə bəşəri silkələyir. Gör dünyanın nizamı necə pozulub ki, atlar, itlər, qurdlar, yuvalarına yem daşıyan zəhmətkeş qarışqalar belə, qorxu, səksəkə içindədir. Cahanı məhvə sürükləyən müharibələrin yaratdığı faciələr, ölüm-itimlər, dağıntılardan dəhşətə gələn insanların harayı SOS qaldırır, dünyanın dağılmaq qorxusu təbiətin varlığını sarır:

***Atları,***
***üzünü Allaha tutub kişnəyir,***
***otları ağlayır,***
***itləri zingildəyir,***
***qurdları ulaşır...***
***İlanları, tısbağaları***
***suda haqlayır ölüm,***
***şəhid olur yuvasına yem daşıyan***
***qarışqa sürüsü...***
***Hava döyüşündən geri qayıtmır***
***ümid böcəkləri...***
***Gözlərini, əllərini, ayaqlarını itirir,***
***əlil olur dünya...***

Müharibənin gətirdiyi ağrıları gerçəkdə yaşamaq, onun fəlakət rəngini andıran, vahiməsini əks etdirən tablonu görmək dəhşətdir! Şair bu şeirilə dağıtmaqdan, yandırmaqdan, öldürməkdən, özgə torpaqlarını zəbt etməkdən həzz alan qəsbkarlara dur!- deyir. Müharibə kabusunun insanlara yaşatdığı acılar dünyanın qlobal faciəsidir. Şair yer üzündə canlıların bu vəhşətə, dağıntılara nifrətini, ərşə ucalan harayını sanki buludlardan tökülən qara leysan təki yağdırır... Dünyanın qan yaddaşında yaşayan müharibələrin ürəklərdə açdığı yaralar illərlə, qərinələrlə sağalmır, sızım-sızım sızladır insanı. Gözü yaşlı bəşərin fəci kürreyi-ərzi dağılmaq təhlükəsilə üz-üzə qoyur, viran olur dünya! Bəs, bu müharibələrin qarşısını necə almaq olar? Bu yerdə şair təxəyyülü bədii axtarışlardan usanmır, dağıntılara son qoyulmasından ötrü insanları şərdən uzaq olmağa, xeyirxahlığa səsləyir. Lirik "mən"Allaha dualar etməyi, yalvarmağı tövsiyə edir. Axı, Uca Yaradan hər şeyi görəndir, eşidəndir, biləndir, bağışlayandır, Onun tövbə qapısı həmişə açıqdır, təki İnsan təmizlənəmək, durulub-saflaşmaq istəyində olsun...

***Günəşə, Aya elçi düşürəm,***
***Havaya, suya, torpağa***
***səslənirəm,***
***Küləyə, yağışa yalavarıram,***
***Tanrıya çatdırsınlar***
***səsimi...***

Və bu həyəcanlı, təlaşlı vəziyyətdən sonra dünyanı sülhə səsləyir... **sülhə gəlsin dünya, sülh gəlsin dünyaya,- deyir...**

***

Pandemiya, Covid ciddi ədəbiyyatın mövzusu deyil, amma onun bəşər övladına gətirdiyi qorxu, narahatlıq, bu dönəmlərdə itkilərin də müharibə qiyafəsində peyda olması, "növbədənkənar" ölümlərlə dünyanı silkələməsi yaddaşımızda şırım açdı. İnsanlar qara-qorxular yaşadı... və sozalıb-itəndən sonra həyata yeni bir ab-hava gəldi. Belə bir həyata sevgi, maraq da bir başqa biçimdə doğuldu: fikirlər duruldu, təbiət də, insanlar da rahat nəfəs aldı. Ağarmış, bozarmış bət-bənizlərə həyat işartısı gəldi. Bütün bunları müşahidə edən şair də Covidi ədəbiyyatın mövzusu etmədən, ondan sonrakı həyata yeni libas biçdi, **"Bu dünya**

**dincəldi bir az"** dedi. Bu rahatlıqdan adamın ruhuna tərtəzə bir dinclik gəldi...

***...Havada quşlar dincəldi,***
***Gülləyə tuşlar dincəldi,***
***Nalələr, ahlar dincəldi.***
***... Yamanca təngnəfəs idi...***
***Bir azca özünə gəldi,***
***Bir azca dincəldi dünya...***

"Ürəyi partlasın tumurcuqların" şeirinin adı obrazlı, məcazlı olduğu qədər də xarakterikdir. Şeirdə partlamaq ifadəsi dəhşətin, ölümün simvolu deyil, baharın gətirdiyi gözəlliyin fövqündə insanın yenidən doğulmasıdır. Poetik fikrin ifadəsi ecazlıdır, yepyenidir: **"Ümidlər bahar oxusun..., dağılsın dünyanın dağılmaq qorxusu... "** Bu şeirdə bənzətmə və bədii detallar sübhün çöl-çəmənə çilədiyi şəbnəm kimidir. Tumurcuqların ürəyinin partlaması isə təbiət gözəlliklərinin ləçək-ləçək açılması, yeni həyatın başlamasıdır...

***

Bədii sözün ehtiva etdiyi mətləblər təbii ki, xarakterik anlamdadır. Ondan həssaslıqla, tutiya timsalında istifadə etmək, ifadə etməzdən əvvəl

oyadacağı təsiri düşünmək bədii sözün yaşam haqqıdır, dəyərinin təcəssümüdür. Demək, şeir yazmaq təkcə onun texnikasını bilmək, şair təbinin gətirdiyi söz-fikirləri sətirlərdə həmqafiyələrlə sıralamaqdan ibarət deyil. Burda şairin mövzuya məsuliyyətlə yanaşması, obraza təbii, xarakterik detallar gətirməsi, əsərə özgür yanaşmaları, poetik rəngləri, təsvirləri yerli-yerində, məharətlə, cazibədarlıqla işlədə bilməsi başlıca şərtdir. Əbəs yerə belələrinə anadan şair doğulub demirlər ki...

Bu fikirləri Şahnaz Şahinin "Şuşa haqqı" lirik poemasını oxuyarkən, hər sözün çəkisini, dəyərini yerli-yerində görüb-duyarkən düşüncəmdən keçirdim. Poemanın təkcə adı şairin ciddi, məsuliyyətli bir mövzuya həyat verdiyini oxucuya diqtə edir. İllərdi Vətən oğulları erməni tapdağı altında inləyən torpaqlarımızı azad etmək arzusu ilə çırpınırdı. Nəhayət, coşqun ruhlu, şir biləkli cəngavər oğullarımız işğalda olan torpaqlarımızı, eləcə də Şuşanı düşmənlərdən təmizlədi. Aristokratlar şəhərinin dağları, daşları, ağacları, yarpağı, sısqa otu belə, rahat nəfəs aldı. Qarabağın tacı, ecazkar yurdu Şuşa azad olmaq haqqını qazandı... Əsəri oxuyuram, ürəyimə rahatlıq gəlir, oxuculara da bu mənəvi rahatlığı yaşatmaqdan ötrü poemadan bir-iki bəndi nümunə

gətirmək istəyirəm, amma seçim qarşısındayam. Bilmirəm, oğullarımızın mübarizliyinə, məkanın gözəlliyinə, igidlərin torpaq təəssübünün meyarı olan döyüşlərdən bir epizoda, yoxsa, Şuşanın keçmişilə bu gününün qovşağında düşüncələrin işığınamı üz tutum... Bəlkə, Söz xiridarının Şuşanın şəninə elə yurdun öz çiçəklərindən hördüyü çələngi gözə alım? Axı, iki bahardı Şuşanın dağlarında, yal-yamacında azadlıq eşqilə süslü əsrarlı çiçəklər açır. Şair bu tabloda Şuşaya məhəbbətini füsunkarlıqla, gül-çiçək ovqatı, həm də vətəndaş mövqeyilə ifadə edib:

***Yollara çıxıram güllü-çiçəkli,***
***Baxıb hər tərəfi Şuşa görürəm...***

Şair çiçəklərin, quşların, otların, göylərin, yerin haqq etdiyi nələr varsa, hamısına könlünün pəncərəsindən sevdalı aşiqtək əl eyləyir. Ardınca da yuxusunun əsir düşdüyü gecədən, **"bu kənd mənim kəndimə oxşayır, deyib"**, yurdu oba-oba "gəzərək" qələbədən, Pənahəli xandan, xarıbülbüldən, bozatlı oğlandan məftunluqla danışır, nə deyirsə, hey Şuşadan deyir.

Şahnaz Şahinin bütün şeirlərində olduğu kimi, "Şuşa haqqı" poemasında da təbiətlə insan vəh-

dətdə təsvir olunur. Müqayisə, qarşılaşma, ülfət, ünsiyyət təbii, lirik ovqatla açılır. Bu birgəliyin anası Torpaqdı, ulularımızın əmanəti olan Ana Torpaq. "Yurd haqqı, yurddaş haqqı" da bu birgəlikdən doğulub. Var yaşamaq haqqı, bəs dağılmaq haqqını necə anlayaq... Sən demə, Şuşanın azad olmaq haqqını, zülmün dağılmaq haqqı özü doğurdu. Budur şair fəlsəfəsi! Şahnaz xanım hər iki haqqın qazanılmasına yeni, fərqli bir aspektdən aydınlıq gətirməyə çalışıb.

***Zülmün dağılmaq haqqı var,***
***Yolların sevinmək haqqı.***
***Arzuların, ümidlərin***
***Bir də doğulmaq haqqı var!..***

Nədən, Vətənin hər qarışı yurd yerimiz olduğu halda, Şuşa bizə bu qədər əziz, sevimlidir? Şuşa nazlı bir mələk, elə bir hüsnü-Leyladır ki, dünya özü ona aşiqdir. Şuşanın əzəmətli, vüqarlı dağları çiyin-çiyinə verib, xəfif bir intizarla, həsrətlə doğmalarının yolunu gözlədi, bir gün ərənlərin bu dağara azadlıq havası gətirəcəyi ümidilə dimdik dayandı... 44 günlük müharibədə cəmi Qarabağa, illah da Şuşaya məhəbbətimiz günü-gündən vüsətləndi.

**Bu saat Dünyanın düz mərkəzində, bir Şuşa doğulur...** Bu lakonik fikrin mahiyyətində gözəlik simvolu olan Şuşaya heyranlıq duyulur. Şuşa başdan-başa bir nağıldı, şair bu nağılı "Şuşa haqqı"nda baş verən hadisələrin poetik işığında təqdim edir. Şuşanın dağıdılmış yerlərinin bərpası, yenidən qurulub tikilməsi arzularımızın gerçəyə çevrilməsidir. Poemada bu gerçəklik, Şuşa tablosu zərif, xəfif ştrixlərlə tamamlanıb:

***Bir yuva tikirəm.., yuva eyy, yuva...***
***Yaşasın, şad olsun, xoş etsin nəva.***
***Könlümə məlhəmdi, ruhuma dəva,***
***Mən hələ bu quşa yuva tikirəm...***
***Mənim əziz Şuşam, bir az da gözlə...***

Bundan belə, Şuşanın gələcəyi şəfəqli olacaq, orda öz yuvalarını yenidən qurub-tikən quşların, evlərinə qayıdacaq yurddaşların azad nəfəsli həyatı çağlayacaq. Dünya Şuşanın bəxtiyarlığına şahidlik edəcək...

***

Şahnaz Şahinin bütün əsərləri, kiçik şeirindən başlamış poemaları da daxil olmaqla hər biri ayrıca bir tablodur. Bu poetik nümunələrlə tanış olan

andan söz, bədii detallar, rəngli təsvir və ştrixlər yaddaşa görüntülərlə həkk olunur, təsəvvür aydınlanır. Bu xüsusiyyətlər şairin "Zəfər nəğmələri" poemasında da çeşidli obrazlar, məkanlar, müdrikanə düşüncələrin ifadəsilə göz önündə sərgilənir.

Bu süjetli poemanı da şövqlə, həyəcanla oxudum. Əsərdə təsvir olunan hadisələr – işğal altında olan torpaqlarımıza aparan yollar, izlər, cığırlar, səngər, eləcə də şəhər və kəndlərimizdə erməni vandallarının törətdiyi dağıntılar, Rəşadətli Ordumuzun əsgərlərinin əsirlikdə olan yurd yerlərimizi azad etməsi bədii təsvir vasitələrinin ecazı ilə vəsv edilib. Müəllif həmin şəhərləri əzəməti, vüqarı, şöhrətli tarixi, görkəmli şəxsiyyətləri ilə öyür. Ən maraqlı və ümdə olan da şairin bütün təsvirləri gözlərimiz qarşısında canlandıra bilməsidir. Zəfər nəğmələrinin hər biri ayrılıqda bir obanın, bir kəndin, şəhərin əsirlikdə yaşadığı acılar, igid oğullarımızın can bahasına qazandıqları qələbə, zəfərimiz haqqında möhtəşəm nəğmələrdir. İllərlə əsirlikdə, tapdaq altında qalan yaşayış məskənlərimiz boz-bulanıq, küskün bir görkəmdəydisə, azad olunca bu məkanların da "rəngi açılır". O yerlər yenidən tikilib-qurulduqca əvvəlki əzəmətli görünüşünə qayıdır. Bu təzadlı ha-

disələr, 44 günlük Vətən müharibəsi, qanlı döyüşlər şair sözünün qüdrəti, boyakar rəssamın fırçası ilə təsvir olunur. Müəllifin təsvir-bənzətmələri öz ilkinliyi, yeniliyi, möhtəşəmliyilə əsərin bədii təsirini qüvvətləndirir. Bu iki misrada olduğu kimi: **"Qanla suvarılır, qanla yuyulur, Qarabağ qan ilə alır dəstəmaz..."**

"Zəfər nəğmələri" ağır döyüşlərin başlanğıcından, milli ruhun köhlən at kimi şahə qalxdığı bir vüsətlə, coşquyla qələmə alınıb. Poemada düşməni torpaqlarımızdan qovub-çıxarmaq üçün odun-alovun içinə atılan əsgərin, şir ürəkli igidlərimizin canlı obrazı var. Mən şairi bu müharibədə döyüşçülərin arasında, yaralıların başı üstündə, şəhidlərimizə ağılar dediyi məqamlarda "gördüm". Deyir, **"Yağış yağır, islanır, Məzarın yaşdı, şəhid, Burda necə yatmısan, Yastığın daşdı, şəhid..."** Sözün qönçətək açılan məqamında şair əsirlikdən azad olunmuş yurd yerlərimizə, Kəlbəcərə, Laçına gözaydınlığı verir. Bu, vətəndaş şairin yurd, torpaq sevgisinin təcəssümüdür. Elə olmasaydı belə canlı, ağrılı, sevincli, qürurlu təsvirlər olmazdı ki! Biz qalibiyyətə doğru yürüdükcə, kəndlərimizi, şəhərlərimizi işğaldan azad etdikcə məkrli düşmən ifşa olunur, sursatını, hərbi texnikasını atıb qaçır. Qəsbkarın yurdumuz-

da törətdiyi xəyanətkar əməlləri lənətlənir. Belə məqamlarda şairin silahı (oxu: qələmi) od saçır, qəzəbi aşıb-daşır. Elə ki, azadlıqda nəfəs alan yurdlarımızı bəxtiyar görür, o zaman qələbə sədası, zəfər sevinci dilində çiçəkləyir. Belə bir rəşadətli döyüş, əsgərlərimizin igidliyi şairin ecazkar təsvir-kəlamlarında sanki dağlarda, oylaqlarda əks-səda verir. "Zəfər nəğmələri" Azadlıq meydanında zəfər gününün təntənəsilə bitir...

***

Kitabda maraqlı bir poema da var: "Mübariz". Adından da bəlli olduğu kimi, poema Azərbaycanın Milli Qəhrəmanı Mübariz İbrahimovun keçdiyi döyüş yoluna həsr olunub. Mübarizin doğulduğu yurdu, evi, uşaqkən hal-xasiyyəti, böyüdükcə formalaşan xarakteri, ürəyində tumurcuqlayan arzuları, coşan vətən eşqi, amalı, qəhrəmanlığı tərcümeyi-halında, ömürlüyündə şairin şəhdi-şəkər dili, sözü ilə ilmə-ilmə toxunub. Mübarizi böyüdüb boya-başa çatdıran ata-ananın xatırlaması, nər oğulu xalqına tanıtması qəhrəmanın obrazına yeni rənglər, çalarlar gətirir. Mübarizin belə gözəl, nümunəvi xüsusiyyətlərə malikliyi, onun Vətən üçün doğulduğunu, ona arxa-dayaq oldu-

ğunu bəyan edir. Atanın, oğul balasının dünyaya gəlişini xəbər verən çapara cavabı möhtəşəmdi:

***Çapar, sən Vətənə gözün aydın de,***
***Sənə muştuluğu Vətən verəcək!..***

Təkcə elə bu iki misra igid oğulun ağır mübarizələrdən keçəcəyinə, qəhrəmanlığı ilə tariximizin bir şanlı səhifəsini yazacağına əminlik ifadə edir. Başqa bir yanaşmada, Mübarizin həyatını ağ kətan üzərində çəkilmiş bir sənət əsərinə bənzədirsən. Mübariz çox şərəfli, qeyri-adi sücaəti, igidliyilə qəhrəman bir ömür yaşayıb. O, işğalda olan torpaqlarımıza azadlıq havası gətirəcəyinə inanırdı... Poemada şair hadisələri əvvəldən sonadək axıcı, rəvan və bədii-poetik təşbeh, bənzətmələrlə təsvir edib. Bu zənginliyin fonunda Milli Qəhrəman Mübariz İbrahimovun portreti əzəmətli, vüqarlı görünür. Poemada müəllifin uğurlu bədii keçidləri əsərə zənginlik, dolğunluq gətirir.

***Qəhrəmanlar ölüm ilə ölməzlər,***
***Alın yazın mübarəkdir, Mübariz!***

Deməl ki, müharibə insanların, torpaqların taleyində zülmət və işıq timsalındadır. Onun dərs-

lərindən öyrənmək, sülhü, əmin-amanlığı qorumaq da Yaradanın ağıl, zəka verdiyi Ali varlığın ümdə vəzifəsidir...

***

Şahnaz Şahinin müharibə mövzusunda yazdığı əsərlərini özünün poetik potensialı, bədii dəyəri, ədəbi qüdrətilə yarada bilməsi, bu şeirlərin, poemaların üzərində incələmə aparmağıma vəsilə oldu. Belə bir yəqinliyim də var ki, Şahnaz Şahin müharibənin dəhşətlərini, qələbəni, zəfəri bədii, poetik bir məharətlə təcəssüm etdirdiyindən onun əsərləri gələcək tədqiqatlarda ədəbi müstəviyə gətiriləcək...

**Şəfəq Nasir,**
*yazıçı, publisist,*
*filologiya üzrə fəlsəfə doktoru*

# Şeirlər



## ŞƏHİD ƏSGƏR

Dağların döşündə,
kollar, yollar, otlar, çiçəklər..,
daşlar arasında,
üzündə-gözündə
parıldayan həyat eşqi
bir əsgər uzanıb yerdə...
sevdiyi torpağın üstə
yatır körpə kimi məsud...

Dağlar, kollar, yollar,
çiçəklər, daşlar
təzimdə...
Buludlar ümid göndərir,
Günəş sevgi...
Bir əsgər uzanıb yerdə,
tamam al qan içində.
Yaralarının nuru düşür
gecəyə...
uçulur qaranlıq,
çoxalır yaşamaq həvəsi...
Torpağı çəkib üstünə
yatır rahat,
        məsud və günahsız bir
        körpə misallı...

# MÜHARİBƏYƏ ŞEİR YAZMAYIN

Dünya müharibəyə getdi..,
İndi
damı uçur başına,
evi yıxılır dünyanın...
Arzuları bombalanır,
tanklara  çırpılıb dağılır,
təyyarələrdən atılır,
PUA-larla vurulur,
yanıb kül olur dünya...
Yıxılmış yuvalardan Ah qalxır göylərə...

Atları,
üzünü Allaha tutub kişnəyir,
otları ağlayır,
itləri zingildəyir,
qurdları ulaşır...
İlanları, tısbağaları
suda haqlayır ölüm,
şəhid olur yuvasına yem daşıyan
qarışqa sürüsü...
Hava döyüşündən geri qayıtmır
ümid böcəkləri...
Gözlərini, əllərini, ayaqlarını  itirir,

əlil olur dünya...
Şirə çəkməyə çiçək tapmayacaq
bal arıları...

Mən,
müharibəyə şeir yazmaq
istəmirəm,
Günəşə, Aya elçi düşürəm,
Havaya, suya, torpağa
səslənirəm,
Küləyə, yağışa yalvarıram,
Tanrıya çatdırsınlar
səsimi...
Mən,
ölümü öldürmək istəyirəm,
ölümə şeir yazmaq istəmirəm!..

Ölümdən
nənni asılmaz,
ölümdən uşaq doğulmaz,
ölümdən ana olmaz...
Sən də
müharibəyə şeir yazma.., yazma.., yazma!..
Çağır,
qayıtsın müharibədən ,
sülhə gəlsin dünya,
Sülh gəlsin dünyaya...

## BU DÜNYA DİNCƏLDİ BİR AZ

*(Kovid virusunun yayıldığı dövr)*

Bir azca dincəldi dünya,
Çoxuna mat görünürdü.
Başına gələn işlərdən,
Çox narahat görünürdü...

Meşəsi, suyu dincəldi,
Bir az səs-küyü azaldı,
Bir az yas, toyu dincəldi...
Davası, hoyu azaldı,
Bir az Tülkü rahat oldu,
Bir az da Ayı dincəldi...

Dərindən bir köks ötürüb,
Hava da özünə gəldi.
Çomağını itirən o,
Çoban da özünə gəldi...

Adamları yeyin, yüyrək,
Cavanlar çevik, şivərək.
Qocalar oddan keçərək,
Yenidən dünyaya gəldi.

Bir azca düşündü insan,
Bir azca dincəldi dünya...
Havada quşlar dincəldi,
Gülləyə tuşlar dincəldi,
Nalələr, ahlar dincəldi...

Topaq şırım-şırım idi,
Əsəblər lap tarım idi.
Dünyaya etdiyi zülmü
Duya bilmirdi ki, insan...
Yediyi, içdiyi qandı,
Canı para-para idi...

Bir az arındı fikirlər,
Bir az azaldı küfrlər.
Bir az çoxaldı mərhəmət,
Bir az sevindi səfillər...

Uzaqdan şad görünürdü,
Elə abad görünürdü...
Gözüylə gördüklərindən,
Bu dünya mat görünürdü...

Əyni, başı tökülmüşdü,
Evi, damı sökülmüşdü,
Suyu, dəni çəkilmişdi..,
Özünə yad görünürdü...

Adamlar kəmhəvəs idi...
Qırmanc çəkib yanbızına
Sabah, axşam qovurdular,
Yamanca təngnəfəs idi...
Bir azca özünə gəldi,
Bir azca dincəldi dünya...

**01 İyun, 2020**

# ÇARMIXDAKI AZADLIQ

Geniş açılmış qollarında
dünyanı qucmaq arzusu var...
Günəş,
bərq vurur üzündə.
Şüa-şüa əriyir duaları,
Əllərinin ortasına çalınmış
mismarın altından
köpüklənir dəniz,
körüklənir sinəsi...

Quşlar gəlib
nəğmə oxuyur başında,
acanda dimdikləyir gözlərini...
Ətə yerikləyən vəhşi heyvanlar
diz çöküb qabağında...
Üzünü,
ayaqlarına söykəyib
ibadət edir azadlıq...

## MƏN AĞAPPAQ BİR SABAHI ÇƏKİRƏM

Gecələri mənim təki kim çəkər..,
Gözlərimdən yuxu kimi çəkirəm,
Ürəyimdən qorxu kimi çəkirəm,
Kürəyimdən ağrı kimi çəkirəm...

Baxıb susur Göy üzünün Valisi..,
Mən də onun göz önündən keçirəm,
Dözümündən, öyüdündən keçirəm,
Hər sözündən neçə məna çəkirəm...

Qələm alıb, nəsə yazır alnıma..,
Daş oynayır, dağ oynayır, çəkirəm...
Sübh üzünə qan çilənir, çəkirəm...
Qara-qura xətlər düşür varağa,
Mən ağappaq bir sabahı çəkirəm...

## ÜRƏYİ PARTLASIN TUMURCUQLARIN

Açın pəncərələri bahara,
bağlayın payıza,
örtün kədərə,
gülümsəyin Günəşə...

Sərin meh altında
rəqs eləsin pərdələr,
yox olsun kölgələr...

Yollar ürkək-ürkək baxışsın..,
yağış yağsın buludlar,
yarpaqlar yamyaşıl sevinsin,
çiçəklər gülümsəsin al-əlvan...

Tozu yatsın küçələrin..,
çıxıb doyunca oynasın
uşaqlar...

Əl-ələ tutub
yallı getsin ağaclar...
Sular,
şellənib yayılsın çöllərə...
çiçəyi çırtlasın torpağın,
ürəyi partlasın tumurcuqların...

Bağlar bar gətirsin,
dağlar qar gətirsin...
Ürəklər yaz çalsın,
ümidlər bahar oxusun,
dağılsın dünyanın dağılmaq qorxusu...

## TÜRKÜ QORU İLAHİ

*Qardaş Türkiyədə törədilmiş geniş masştablı yanğınlardan bütün canlı və cansız aləm əziyyət çəkir. İnsanların ahı, yanan heyvanların, quşların, otların, ağacların nalәsi ərşə ucalır.*

Od vurub xain əlləri, yaxdılar türkü, İlahi
Göyə nə ahlar ucaldı, özün gəl gör ki, İlahi.

Bu yanda quş balaları, bu yanda yumurta yanmış
Pələngin yanıb yapışmış canına kürkü İlahi.

Ulayır atəş içində balaca qurd balaları
Bir dəli leysana yol ver, göstər bu görkü İlahi

Nə durub qaçmağa yer yox, nə xilas olmağa imkan
Bircə sənsən, bircə sən, sənədi ərki, İlahi

Meşələr, ağaclar yandı, ağacda quş yuvaları
Dağıldı gülüstan, oldu, bir qara sərgi, İlahi

Uzandı qapqara əllər, yaxdılar türkü amandı
Şahnazın and yeri sənsən, sən qoru türkü, İlahi.

## BÖYÜK AZƏRBAYCAN TORPAĞINDANAM!

Kim bölüb dunyanı belə yüz yerə,
Ad da bağışlayıb şəhərə,kəndə,
Yaradan Allahdı,ayıran bəndə,
Soruşma bu elin harasındanam,
Böyük Azərbaycan torpağındanam!.

Eşitməmisənmi,belə məsəl var-
Elin nə o başı, bu başı olar.
Vətənsiz adama dünya dar olar,
Bəxti düyün düşən Qarabağdanam,
Böyük Azərbaycan torpağındanam!

Bu Vətən böyüdüb südüylə bizi,
Verib duzumuzu, çörəyimizi,
İkiyə bölüblər ürəyimizi,
Təbrizdən, Göyçədən, Naxçıvandanam,
Böyük Azərbaycan torpağındanam!

Düşmən at oynadıb Vətən bağımda,
Gülü xirmən edib Gülüstanımda,
Sərhədlər qurubdu öz torpağımda,
Cavadxan, Səttarxan harayındanam,
Böyük Azərbaycan torpağındanam!

Dərisi soyulan Nəsimi - mənəm,
Hərraca qoyulan ölkəsi - mənəm,
Babəkin vuruşan haqq səsi - mənəm,
Yaralı Arazın qırağındanam,
Böyük Azərbaycan torpağındanam!

Allah rəvac verib, alqış o günə,
Sərhəddə gül bitsin dirək yerinə,
Göydən nur ələnsin Vətən mülkünə,
Şəhriyar, Bəxtiyar sədasındanam,
Böyük Azərbaycan torpağındanam!

# Poemalar



# ŞUŞA HAQQI

*Proloq*

Dilimdə söz çiçəkləyir,
Boynumda Şuşa haqqı var.
Ana haqqı, bacı haqqı,
Yurd haqqı, yurddaş haqqı var.

Bayrağımın kölgəsində,
Çiçəklərin açmaq haqqı...
Quşların uçmaq haqqı var!
Otların cücərmək haqqı,
Göylərin ovutmaq haqqı,
Yerin ovunmaq haqqı var!..

Ay yerində bərqərardı,
Gün yerində bərqərardı.
Duman yerə yaraşıqdı,
Çən yerində bərqərardı...

Zülmün dağılmaq haqqı var,
Yolların sevinmək haqqı.
Arzuların, ümidlərin
Bir də doğulmaq haqqı var!..

***

Adı çəkiləndə ürəyim əsir,
Hüsnünə sözlərdən çələng hörürəm.
Yollara çıxıram güllü-çiçəkli,
Baxıb hər tərəfi Şuşa görürəm.

Arabir gecələr yuxyma gəlir,
Keçən günlərini sərir önümə.
Uzaqdan əl edir dağlar, yamaclar,
Indi hər tərəfi Şuşa görürəm.

Əlində səhəngi gözəllərə bax,
Suda güzgülənir, şəkillənirəm.
Heç vaxt görmədiyim yerlərə gedib,
Indi hər tərəfi Şuşa görürəm.

Bu da bir yazıdı, qəza-qədərdi,
Çox arzum toxunur daşa görürəm.
Irəvan, Ərdəbil, Təbriz, Zəngəzur,
Xankəndi, Xocalı gözü yol çəkir...
Mən indi hər yeri Şuşa görürəm!

Hər yerdə bir şəhər salıb keçirəm,
Xəyal yelkənimi açıb keçirəm...
Nə ürək dincəlir, nə gözüm doyur,
Yollar qucaq açır, ellər "gəl" deyir...

Qələbə ətrini yayır küləklər,
Qanımda dolanır, ruhumdan keçir.
Şəhid qardaşımın son vəsiyyəti,
Könlümdən od alır, ahımdan keçir...
Mən indi hər yeri Şuşa görürəm...

***

...Ətrini gətirir külək,
Uzaqdan Xarı bülbülün,
Şuşanın yarı bülbülün,
Yarı gül, yarı bülbülün...
Nə olsun ki, payızdı...

Hələ mən,
çiçəkləyən əsgər çəkmələrini demirəm.
Hələ mən,
xəzəllərin sinxron rəqsindən danışmıram.
Hələ mən,
çılpaq ağacların gövdəsində

yem axtran qarışqalardan
söz açmıram...

Bu gecə
ürəyimin aritmik  döyüntüləri də
Şuşa qışqırır...

Bülbülün, Üzeyirin, Natəvanın
yaralarından axan qan da
Şuşa deyir...

Bu saat
dünyanın düz mərkəzində bir
Şuşa doğulur...

Və ilin dörd fəsli də Şuşadır...
Yağış tökür,
qar yağır,
külək əsir,
Günəş doğur Şuşa!..

***

Əlimi nəyə vursam,
Burda ağrı-ağrıdı.
Ayağımı basdığım,
Torpaq ağrı-ağrıdı.

Ağrı tutub dörd yanım,
Ağrı oxuyur canım.
Ağrı qaynayır qanım,
Yollar doğram-doğramdı.

Yollarını pusduran,
Yağıya qan qusduran
Mübarək cavanlara
Döşəkdi ana Torpaq,
Uca Göylər yorğandı...

***

...Bu gücə yuxunun əsir gecəsi,
Mən də ki, yuxudan didərgin adam.
Uçub bu gecənin qaranquşları,
Səngərdə oyaqdı qan qardaşları...

Uduşlu, uduşsuz lotoreyalar
Hərəsi bir adı qaralayır bax...
Hərəsi bir qəlbi yaralayır bax...
Bu tinin başında iki cavan da,
Guya ki, başını girələyir, bax...

Dağıtdı bir xəbər yüz evi getdi,
Ovuda bilmədim bir ürəyi də
Soyuda bilmədim bir kədəri də...
Atıb pencəyimi qolumun üstə,
Əvvəlki yerişlə, qabaqkı tərzlə
Qayıda bilmərəm daha o kəndə...

Cəbhədən alovlu xəbərlər gəlir,
Qarşıdan narahat səhərlər gəlir.
Geyinib qələbə paltarlarını
Yenə adamların başları üstə
Fəxri Xiyabana  şəhidlər gəlir...

Bu Fəxri Xiyaban yenə köç dolu,
Ürəklər düşmənə qəzəblə dolur...
Kimsə pıçıldayır qulaqlarıma:
-Sinəsi üstündə medalı varmış...
Indi yüz sualın bir cavabı da
Allahdan asılıb, Allaha qalmış...
Bu şəhid oğlanın-bu bəxtəvərin,
Deyirlər, deyəsən "adamı" varmış...

Yenə bu gecədən bir yuxu keçir,
Yenə ürəyimdən bir qorxu keçir...
Kimsə güllələnmə verib gecəyə-

Endirib səmanın ucalığından
Üçrəngli bayrağı asıb gecəyə...

Gəl gedək, boz atlı oğlan, gəl gedək,
Gedək atımızı dəyişdirməyə
Gedək adımızı dəyişdirməyə
Gedək haqqımızı dəyişdirməyə...
Anam od almağa göndərib məni.
Gedək odumuzu dəyişdirməyə...

***

...Vətən, sənin hər bir küncün əzizdi,
Amma Şuşa köksündə dağ yeriydi.
Xana, bəyə baş əyməyən dağları,
Ərənlərin fəxr, uğur yeriydi.

Dərdi dağıtmağa dağa çıxarlar,
Könül ovutmağa dağa çıxarlar.
Çiçək toplamağa, gül toplamağa,
Xoş hava almağa dağa çıxarlar...

Başı qovğadaydı uca dağların...
Min dərd gəzdirirdi başında dağlar,
Min dərd gəzdirirdi qanında dağlar.
Köksündə həsrətin damğası vardı,

Könlündə azadlıq yanğısı vardı...
O günə inanıb yol gözləyirdi,
Hər düşən axşamı, gələn sabahı,
Hər gülü, çiçəyi yol gözləyirdi...

***

Kefinə düşüb oxuyur,
Bu quş da qələbə marşı.
Güllə güllələnib düşür,
Ölümdən oluma qarşı.

Yağır toyda şabaş kimi,
Düşür üstümə daş kimi.
Asılıb qalıb yaxamdan,
Bağrı mənlə badaş kimi...

Candan keçir, can aparır,
Gecə çəkib dan aparır.
Müxənnət zalıma qarşı,
Tutub məni qan, aparır...

Min il əvvəlki dünyadı,
Gördüyüm köhnə röyadı...
Dər-divarı oyuq-oyuq,
Oddan isti, buzdan soyuq
Kinli, məkrli dünyadı...

O taydan bir səs ucalır,
Bu taya sədası düşür.
Hər gün mələklə şeytanın,
Göylərdə davası düşür...

Daha ürəklə oxuyur,
Güllələr qələbə marşı,
Çiçəklər qələbə marşı,
Ürəklər qələbə marşı...

***

Allah, bu günü də gördük,
Şuşaya yollar açılıb.
Ana kimi hər tərəfdən,
Şuşaya qollar açılıb.
Ulu Tanrı dərgahına
Gör neçə əllər açılıb!..

Üzlərdən sevinc tökülür,
Gözlərdən sevinc tökülür,
Dillər xoş xəbər daşıyır,
Səslərdən sevinc tökülür...

Pənahəli xanın
Gözü aydınlığa çıxıb,
Sözü aydınlığa çıxıb...
Söndürülən ocaqların
Közü aydınlığa çıxıb...

Şuşada vaxt da dəyişib,
Gecə, gündüz yoxdu indi.
Günəşin, Ayın camalı,
Üzü aydınlığa çıxıb...

Kəbə yolları açıqdı,
Oyaqdı ocağım, pirim,
Oyaqdı yeganəm, birim.
Oyaqdı igidim, nərim...

***

İlahi, nə gözəl yerdi,
Bu kənd kəndimə oxşayır.
Yoluna, izinə kimi,
Dağına, düzünə kimi,
Oduna, közünə kimi
Bu kənd kəndimə oxşayır...

Qışı palçıq, yayı tozdu,
Toyu əlvan, vayı bozdu.
Adamları da eynidi...
Bir az sudu, bir az közdü
Bu kənd kəndimə oxşayır.

Davası davamdı elə,
Havası havamdı elə,
Qucaq açıb gəl-gəl deyən
Nəvası nəvamdı elə..,
Bu kənd kəndimə oxşayır...

Nə zaman ki, yağı vurdu,
Viran qaldı evi, yurdu.
Dağların bəri üzündə,
Kəndimiz boynunu burdu..,
Bu kənd kəndimə oxşayır.

Yetişdi qisas vaxtımız,
Quruldu zəfər taxtımız...
Açıldı bağlı baxtımız.
Köç başladıq o dağlara,
Torpaq azad, könüllər şad...
Bu kənd kəndimə oxşayır...

***

...Hələ də özünə gəlməyib Şuşa,
Boylanır göylərin daman yerinə.
Deyirəm, ta qəlbi qübar görməsin,
Mən bayraq çəkirəm duman yerinə.

Yellənib Günəşin üzündən öpür,
Torpağa düşən qan izindən öpür.
Şəhid anasının gözündən öpür,
Mən bayraq çəkirəm duman yerinə.

Mən bayraq çəkirəm duman yerinə...
Üç rəngə bürünür dərə, təpə, düz,
Üç rəngə bürünür həm Ay, həm Ulduz,
Üç rəngə bürünür hər gecə, gündüz...

O yandan fırçanı götürür Səttar...
Bir nəhəng tablodu bax, Cıdır düzü,
Yenə havalanır Xan şikəstəsi,
Yayılır dörd yana xoş zənguləsi.

Oyanır yuxudan Pənahəli xan,
Igidlər atlanıb cövlana gəlir.
Mən bayraq çəkirəm duman yerinə,
Torpaq dinə gəlir, imana gəlir...

***

Bu da bir taledi, qismətim oldu,
Qalamdı, dinimdi, məzhəbdi Şuşa.
Beytül-müqəddəsdi, Hüsnü-əladı,
Həcdi, Kərbəladı, Məşhəddi Şuşa.

Sədası Tanrının qatından gəlir,
Sorağı Doğudan, Batıdan gəlir.
Düşməni də bilir, dostu da bilir,
Necə bir nemətdi, sərvətdi Şuşa.

Tarixdən gələndi, tarixdə qalan,
Pirdi, müqəddəsdi hər tin, hər dalan.
Başından keçsə də yüz qovğa, bəla,
Ən uca sərhəddi, son səddi Şuşa.

Sıyrılıb canından neçə can çıxıb,
Şahlara layiq bir ərməğan çıxıb.
Hər daşı, qayası zühurdan çıxıb,
Möhürdü, məbəddi, əhlətdi Şuşa,
Həcdi, Kərbəladı, Məşhəddi Şuşa!..

***

...Mənim əziz Şuşam, bir az da gözlə,
Bir az dərd tapmışam, ağrı çəkirəm.
Davadan yaralı qayıdıb gəlib,
Mən hələ bu quşa yuva tikirəm.

Oturub qapımın barısı üstə,
Sarğı sarıyıram yarası üstə.
Körpə dümdiyinin sarısı üstə,
Mən hələ bu quşa yuva tikirəm.

Itirib kimi var, nəyi var, Şuşa,
Sultanı, xanı var, bəyi var, Şuşa.
Yaralı köksündə neyi var, Şuşa,
Mən hələ bu quşa yuva tikirəm.

Qan tökür sərasər nəm gözlərindən,
Kim öpmüş yol çəkən nəm gözlərindən...
Mən yolumdan oldum, sən gözlərindən,
Mən hələ bu quşa yuva tikirəm.

Bir yuva tikirəm.., yuva eyy, yuva...
Yaşasın, şad olsun, xoş etsin nəva.
Könlümə məlhəmdi, ruhuma dəva,
Mən hələ bu quşa yuva tikirəm...
Mənim əziz Şuşam, bir az da gözlə...

## Epiloq

Gözlə, görüşünə gələcək ellər,
Saçını darayıb hörəcək ellər...
Ev-ev, yuva-yuva isinəcəksən,
Söz-söz, dua-dua sevinəcəksən...

Suların çağlayıb axacaq yenə,
Gözəllər seyrana çıxacaq yenə.
Dağların başında bəyaz örpəyi,
Çəmənlər toyxana, bulud sərpayi...

Yenə igidlərin kəhər belində,
Yarışa çıxacaq Cıdır düzündə.
Təzə sevdalılar bəxtiyar, azad,
Həyat başlayacaq, ömr edəcəklər...

Sünbülün dən tutub un eyləyəcək...
Ruzi-bərəkətli təknənə şükür,
Torpağına şükür, suyuna şükür...
Dağlarına düşən qarın var olsun,
Ocağın tüstülü, bağın bar olsun..,
Mənim əziz Şuşam, bir az da gözlə...

## ZƏFƏR NƏĞMƏLƏRİ

*Lirik poema*

Hər gün qulağımı bir səs oxşayır,
Könlümə yüz boya çəkən çağırır.
Ruhunu vətənin ruhuna qatan,
Canını bayrağa bükən çağırır.

Sevinir hər çiçək, hər yarpaq, hər gül,
Bu qaya səsləyir, o dağ çağırır.
Murovdan o üzə süzür xəyalım,
Bütün varlığıyla torpaq çağırır.

Qisas deyib durub gör neçə ildi,
Məzarı dağılan ruhlar çağırır.
Aparır qan izi üzü Şuşaya,
Didilmiş bədənlər, başlar çağırır.

Ağrı-ağrı kəsir ağrılarım da,
Gözlərdə çırtlayan yaşlar çağırır.
O, daş yaddaşına qurban olduğum,
Dərələr əl edir, daşlar çağırır.

Səngərdən səngərə qonur quş kimi,
Müzəffər ordunun qalib əsgəri.
Başının üstündə üçrəngli bayraq,
Yıxır sərhədləri, aşır sədləri.

Insantək dil açır hər cığır, hər iz,
Cəngi haraylayır, Segah çağırır.
Get, sənə, igidim, uğurlar olsun,
Səni o müqəddəs sabah çağırır...

* * *

Xeyir-dua ver, ana,
Yetişdi qisas anı.
Tökməyə düşmən qanın,
Qarabağa gedirəm.

Gözləməkdən usandıq,
Ta keçsin bu üzüntü...
Haqqın əlindən tutub,
Qarabağa gedirəm.

Yurdum yuxuma girir,
Qisas deyib səsləyir.
Cihad bizi gözləyir,
Qarabağa gedirəm.

Füzuli, Ağdam, Laçın,
Şuşa yolmasın saçın.
Çək dumandan çalmanı,
Qarabağa gedirəm.

Ordum yenilməz, mətin,
Dünya görsün qüdrətin.
Qana qandı niyyətim,
Qarabağa gedirəm.

Bu son döyüş, son dava...
Qarabağ alınacaq!
Dünya türkün olubdu,
Yenə "türkün olacaq"...
Xeyir-dua ver, Ana,
Qarabağa gedirəm!..

* * *

Bu da bir cürə ağrıdı..,
Çıxıb canımdan gedir,
Gedir əsgərliyə.

Qanımın qatı təzyiqi də
Bu sabah yerindən hövlnak qalxıb
Getdi əsgərliyə.

Dünən qonşu kəndə şəhid gəldi,
Qəzəbim bir az da körükləndi,
Mündi köhlən atın,
Sürdü əsgərliyə.

Dünənki uşaqlar,
Bığı burma igid oldu.

Dədələrdən, babalardan
Yetərincə öyüd aldı,
Aldı, getdi əsgərliyə.

Getdi dostum, getdi qonşum,
Neçə uzaq, yaxın tanışım..
Sanki kəndin tən yarısı
Getdi əsgərliyə.

Ordumuz da Allah versin,
Yeri yerindən oynadır.
Damarda qanı coşdurur,
Ağlı başından oynadır.

Hər gün qalib ordumuzdan,
Zəfər üstdən zəfər gəlir.
Əsir yurdlar azad olur,
Ürəklərə fərəh gəlir.

Murdar çəkmələr altından,
Canı qurtarır torpağın...
Rəngi açılır torpağın...
Başı ucalır torpağın..

Azərbaycan bayrağını
Qaldırır başı üstünə.
Çəkir şəhid balasının,
Mübarək nəşi üstünə...

Döyüşlərə şir tək girir,
Yurdumun cəsur əsgəri.
Bir hücumla qalaqlanır,
Leş üstə düşmən leşləri.

El-el, mahal-mahal gəzir,
Adı şanlı Ordumuzun.
Tarixi təzədən yazır,
Addımları Ordumuzun...

* * *

Ağır istehkamları,
Yarıb keçir ordumuz.
Düşməni biçib yerə
Sərib keçir ordumuz.

Dronlar ölüm hökmü
Oxuyur göydən yerə.
Canına qorxu düşür,
Ürəyinə vəlvələ.

Atıb qaçır hər şeyi
Silah-sursat.., texnika...
Meydanda düşüb qalır
Boş cəsarət, boş papaq...

Bir atışla Bayrakdar
Yüz canı birdən alır.
Bir bölüyün yerində
Iri bir çala qalır.

Bu Mübariz, bu Fərid,
Bu Poladın qisası.
Azərbaycan əsgəri
Tarix yazır, qısası!..

Kefi kök, damağı çağ,
Ruhu yüksək əsgərim.
Qəlbi nifrətlə dolu
Haqqa söykək əsgərim

Döyüşlərə şir kimi,
Pələng kimi atılır.
Zəhmindən yer titrəyir,
Göylər öyür adını.

Şimşək tək çaxıb keçir..,
Təzim edir dağ-dərə.
Bir yol çəkir zəfərə,
Azərbaycan əsgəri!

* * *

Yaxına, uzağa mərmilər düşür,
Ölüm bu meydanda marığa durub.
Güllə yağış kimi tökülür yerə,
Neçə cavan ömrü yarıda qoyur.

Əl əldən yapışır, ürək ürəkdən,
Hər əsgər bir ordu, ordu bir əsgər.
Baxmayıb aldığı yaralarına,
Yenə də döyüşə atılır əsgər.

Keçilməz dağları qalxır inadla,
Bir əli qayada, biri tətikdə.
O qoç Koroğludur, başqa kim olar,
Belə şücaətdə, belə ürəkdə...

Qanla suvarılır, qanla yuyulur,
Qarabağ qan ilə alır dəstəmaz.
Bu haqq savaşıdır, qoy bilsin dünya,
Haqq yolun yolçusu peşiman olmaz...

* * *

Cəbhəni düşünürəm...
Könlüm xəyal atında.
Indi on igid çıxır,
Bir boz daşın altından.

Bir bədəndən göyərir,
Vurulan yerdən çıxır.
Göydə Günəşdən yağır,
Yerdə buluddan çıxır.

Yerdən, göydən güc alır,
Azərbaycan əsgəri.
Səmaya  kəmənd atır,
Azərbaycan əsgəri.

Öndə Ali Baş Komandan-
O ər oğlu ər durub.
Qardaşı Ərdoğan da,
Deyir qorxma, vur.., durub.

Öz taleyini yazır,
Öz əli millətimin.
Dünya önündə matdı,
Ördumun qüdrətinin.

Dabanına tüpürüb,
Qaçır dinsiz erməni.
Yadların qısqırdığı,
Yurd-yuvasız erməni.

Üçrəngli bayrağımız
Tellənir Qarabağda.
Bu gün torpaq özü də
Əsgərdi Qarabağda.

Hər kəsilən əzadan,
Gör neçə baş göyərir.
Qədəm qoyduğun yerdə,
Çöl gülür, daş göyərir.

Get, sənindi Qarabağ,
O od-ocaq sənindi.
O toy-büsat sənindi,
Get, indi vaxt sənindi...

Başın üstündə Allah,
Tanrı səni qorusun.
Günəşin övladları
Bu vətəni qorusun!...

* * *

Ey dahi Füzulinin adına olan şəhər,
Nadürüst əllər ilə hər şeyi talan şəhər.
Gecə-gündüz saç yolub yelə sovuran şəhər,
Sil gözünün yaşını, qalx ayağa, gəlmişik!

Göstər yaralarını, dünya görüb inansın,
Kör gözlərə işıq ver, bəlkə görüb utansın.
Talansın zülmün evi, evin tək yağmalansın,
Udduq haqq savaşını, ver sadağa, gəlmişik!

Səni körpə uşaq tək böyüdərik, darıxma,
Soyumuş ocağını isidərik, darıxma.
Yenə birgə şadlanıb, sevinərik, darıxma,
Baxıb dönər qürurdan ürək dağa, gəlmişik!

Ilahi özü yazıb türkə qalib qismәti,
Istiqbalı, zәfәri, bu şanı, bu şöhrәti.
Dağıldı zülmün evi, qurmağa mehr-ülfәti,
Doğma yurd-yuvamıza-Qarabağa gәlmişik!..

* * *

Daş üstә daş qoymayıb,
Özü bayquş olanlar.
Otuz ildә mikrob tәk,
Yurdumuza dolanlar.

Nә yeri var, nә yurdu,
Dığa oğlu dığanın.
Qadın deyil, ana yox,
Şeytan, iblis doğanın.

Mәkrindәn, hiylәsindәn,
Allah da baş açammır.
Çaşdırıbdı dünyanı,
Bu ilanlar, çayanlar...

Allahın evini dә,
Donuzxana ediblәr.
Canlı, cansız nә varsa,
Zülm, işgәncә veriblәr.

Barbarlıq, vandalizm,
Qanından gəlir "yan"a,
Gedib gələn nəfəsi,
Köklənibdi yalana.

Yaşadığı evimi,
Otağımı yandırır.
Meşələri odlayır,
Ağacları yandırır.

Göyə tüstü tək qalxan
Bu torpağın ahıdı.
Şəhiddi burda hər şey,
Hər şey ağır yuxudu...

* * *

Qarı düşmən qəzəbini,
Hirsini qusur indi də.
Acığını ağaclardan,
Evlərdən çıxır indi də.

Soyur, talayır, sonra da
Evləri yandırıb çıxır.
Azərbaycan bədxahlara
Yenə də zirvədən baxır.

Nəyi varsa yığışdırır...
Köhnə, təzə paltarını,
Ucuz, nimdaş palazını...
Lap "unitaz"ını götürür,
Amma..
Körpəsini qoyub gedir!

Qəbirdən ölü çıxarır,
Ocaqdan külü götürür.
Qıymır Allahın itinə
Önündən yalı götürür...
Rədd olub gedir erməni!

Döyüş meydanında qalan,
Şəhidi vecinə deyil.
Etdiyi cinayətlərin,
Şahidi vecinə deyil..

Allahdan qorxusu yoxdu,
Içində ağrısı yoxdu.
Axtar, sözünün içində,
Bir kəlmə doğrusu yoxdu...

Asta-asta köks ötürüb,
Torpaq dikəldir belini.

Dodağı qaçır yolların,
Gözləri gülür çöllərin...
Dili açılır güllərin...
Rədd olub gedir erməni...

* * *

Səsi gəlir qulağıma Şuşanın,
Könlü yara, qəlbi qırıq Şuşanın.
Damarında qaynar qanı coşanım-
Yürü Ordum, yürü Qurdum, Şuşaya!

Dağ başında çiçək açmış kimidi,
Bir əliylə göyü qucmuş kimidi.
Canımızın ruhu uçmuş kimidi,
Yürü Ordum, yürü Qurdum, Şuşaya!

Şəhidini al çiyninə sən yeri,
Yamaca yat, buludlarla tən yeri.
Addımların qoy titrətsin göy- yeri,
Yürü Ordum, yürü Qurdum, Şuşaya!

Igidlərin yağılardan öc alsın,
Üzümüzə şanlı sabah açılsın.
Məscidlərdən Azan səsi ucalsın,
Yürü Ordum, yürü Qurdum, Şuşaya!

* * *

Qisas qiyamətə qalmadı, Allah,
Yurdun üzüyünün qaşı alındı.
Şad xəbər gətirdi açılan sabah,
Sevin, Azərbaycan, Şuşa alındı.

Alındı daşalara çilənən qanım,
Bu zəfər elə o daşa yazıldı.
8 Noyabr 2020-
Tarixə şərəflə Şuşa yazıldı.

Ordum müzəffərdi, əsgərim igid,
Əyilməz qürurum, qəddim alındı.
Bağlandı düşmənin bəndi-bərəsi,
Vətənin ən uca səddi alındı...

* * *

Sevgililər günü bir bəhanədir,
Tanrının ver günü sevirəm səni.
Gecə aydınlığı, günün dan üzü,
Axşamın toranı sevirəm səni.

Baxtımın qadasın alanı gəlib,
Bu Qaval daşının çalanı gəlib.
Araz qovuşdurub, Kürmü gətirib,
Kitabım, Quranım, sevirəm səni.

Iki min yeddi yüz səksən üç dəfə,
Boynuna qol saldı bu böyük zəfər.
A doğma yurd yeri, a kənd, a şəhər,
A dağım, aranım, sevirəm səni.

Torpaqla danışım, suyla dərdləşim,
Düzənlə əlləşim, dağla behləşim.
Bir qaya döşündə qoy heykəlləşim,
Şuşam, can dərmanım, sevirəm səni!

* * *

Yağış yağır, islanır
Məzarın yaşdı, şəhid.
Burda necə yatmısan,
Yastığın daşdı, şəhid.

Cismindən şirə çəkib,
Çiçəkləyər torpağın.
Altında döşəyindi,
Üstündəsə yorğanın.

Üçrəngli bayrağının
Nuru düşüb üzünə.
Yenə səsləsə vətən,
Ellər gələr səsinə.

Yollanar döyüşlərə
Azadlıq carçıları.
Siz yenilməz ordunun
Şahidlik yolçuları.

Rahat ol, ta dinc uyu,
Qanın qalmadı yerdə.
Dönür köçkün ellərin,
O, doğma, əziz yurda.

Dalğalanır vüqarla
Bayrağım Qarabağda.
Başlanır türk ellərin,
Növrağı Qarabağda...

* * *

İlahi, nə gözəl açıldı sabah,
Gəldi Kəlbəcərin xeyir xəbəri.
Torpağı başabaş xəzinə olan,
Dağların başında bitən şəhərin.

Gözü yolda idi, qulağı səsdə,
Bir az da incikdi bizdən Kəlbəcər.
Bir vaxt çal-çağırlı, toylu-düyünlü,
Bəxti bəxtimizlə gülən Kəlbəcər...

...Gözəl yağır Kəlbəcərin dağına,
Dədə Şəmşir, qara bax e, qara bax.
Dərd yuyulur dağlarının döşündən,
Axıb gedir qara, bax e, qara, bax.

A Sücayət, ahın tamam oldu ki,
Boşalmışdı sinən altı, doldu ki.
Azərbaycan bir qələbə çaldı ki...,
Düşmən bağrı yara, bax e, yara.., bax...

Deyirdin “neyləyək, baxt belə baxtdı”,
Inandın “hər şeyi həll edən vaxtdı.”
Rahat uyu, Kəlbəcərin azaddı,
El qayıdır, ora bax e, ora bax...

* * *

Bu gün də Laçının günüdü, Allah,
Axır ki, yurdumdan gedir erməni.
Çiynini göylərin tağına verib,
Şəhər bircə anlıq özünə gəlir.

Nələr görmədi ki, əsir torpağım,
Talandı, soyuldu, varı daşındı.
Hər murdar çəkmədən, iyrənc nəfəsdən,
Havası qaraldı, cismi aşındı.

Fəqət şax dayandı, namərd düşmənə,
Daim boz üzünü göstərdi şəhər.
Inandı, gələcək azadlıq günü,
Yağıya yerini göstərdi şəhər.

Dolanbac yolları qolları kimi,
Açıb ordumuzu qarşılayır, bax...

Dünəni tarixdə qalacaq, bu gün
Üzünə açılır yeni bir sabah...

* * *

Gözün aydın olsun, Laçın, ay Laçın,
Sənin də ömrünün şad vaxtı gəldi.
Fələyin çərxinin dolanan vaxtı,
Düşmənlərin məğlub, pərt vaxtı gəldi.

Belini dumanlar qurşasın daha,
Telini küləklər dağıtsın yenə.
Oğullar doğulsun mərd, cəsarətli,
Analar pir deyib böyütsün yenə.

Gözəllər naz etsin gülə, çiçəyə,
Igidlər at minib, meydan sulasın.
Atalar fərəhlə köksün ötürsün,
Körpələr bəxtiyar, könül xuraman...

Quşlar qanad çalsın səmada rahat,
Həkəri kükürəyib coşsun fərəhdən.
Yenə axşam düşsün, Ay doğsun gecə,
Sabah Günəş qalxsın dağlar belindən...

* * *

Elə bircə sənsən, elə bircə sən,
Elə bircə dəndi, elə bircə dən
Bu mavi səmaya əlimdən düşən...
O da göyərdi!

Göyərdi, göyərdi, göyərdi, Allah,
Bu çöllü biyaban, bu yer göyərdi...
Allahın açdığı o sirr göyərdi...
Qalmadı bir dərdim,
müdam, göyərdi!

Havası başımdan getməmişdi ki,
Yerini özgəsi tutmamışdı ki...
Bax bu çopur daş da, o sıldırım da,
Tutdu kişi kimi verdiyi sözü...
Adam, göyərdi!

Göylərin ətəyi, sualrın üstü,
Qayaların altı, yolların üstü,
Bacamızdan çıxan o köhnə tüstü
Odunsuz, ocaqsız qalxıb göyərdi...

Uşaq tək sevindi hər cığır, hər iz,
Dağlar yetim idi, çöllər kimsəsiz.
Yeridi üstümə əsir kəndimiz,
Səpdi göz yaşını dam-dam, göyərdi...
Zəngilan, Qubadlı, Ağdam göyərdi!...

* * *

Ən gözəl şeiri sən yazdın,
Ali Baş Komandanım!..
Mübtədası, təyini, xəbəri öz yerində.
Azərbaycan əsgəri cəbhənin köz yerində
Düşmənlərin başına od ələyir davada...

Xalq dəmir yumruq kimi birləşmiş ətrafında,
Hər sözün bir qələbə, hər zəfərin söz sənin!
Gözləyir doğması tək hər saat hər kəs səni...
Hər əsgərin qəhrəman, Ordunsa şücaətli...
Dövlətinə sadiqdi, xalqına sədaqətli...

Nə yazsam sənə çıxır, nitqimə sən gəlirsən,
Sən elə Atatürkə, Heydərə tən gəlirsən.

Ha baxıram, hər dəfə mənə Vətən gəlirsən,
Başqa nə desəm azdı...
Ali Baş Komandanım!

Danışırsan inamla, susursan iftixarla,
Ətrafında ulu xalq dayanıbdı vüqarla.
Qürurla dalğalanır, bayrağımız qürurla...
Ta Qarabağda yazdı...
Ali Baş Komandanım!..

* * *

...Bitdi müharibə, qurtardı dava,
Açıldı qıfıllı, bağlı qapılar.
Çıxdı azadlığa Qarabağımız,
Çıxdı azadlığa o dağlarımız...
Çıxdı azadlığa otlaqlarımız...
Əyninə al-əlvan donunu geyib,
Çıxıb bayram etdi yaylaqlarımız..,
Sevincdən ağladı obalarımız...

Başlandı uğurla bərpa işləri,
Asfalt yol çəkildi Suqovuşana.
Bir yol da qol açıb Şuşaya gedir...
Çiskinə, dumana əl edib qalxır,
Bu yol baş götürüb Allaha gedir.

Deyir "haqq nazilər, amma üzülməz".
Bu torpağın ahı yerdə qalmadı.
Qalmadı hesabı qiyamət günə,
Qisası alındı, şükür, qalmadı.

Sərhəddə möhkəmdi, ayıq-sayıqdı,
Vətənin polad tək mətin əsgəri.
Ən çətin döyüşdən üzüağ çıxan,
Əsrin savaşını udan əsgəri.

Dağılmış evlərin ruhu şadlanır,
Onlar da yaralı, ya da şəhiddi.
Bulaqlar, meşələr, otlar, çiçəklər,
Qatil əməlinə diri şahiddi.

Bilsin, agah olsun düşmənlərimiz,
Demişdik bu yurda qayıdacağıq.
Dünyanın mərkəzi-Qarabağımda,
Yeni bir gülüstan yaradacağıq!

Dünyaya göstərdik türklüyümüzü,
Dünyaya göstərdik sərt üzümüzü!
Qaldırdıq göylərə haqq səsimizi,
Yazdıq, qanla yazdıq tariximizi...
Dünyanın ən uca yerindən asdıq-
Asdıq QARABAĞDAN Bayrağımızı!..

* * *

Qələbə yaraşır mənim xalqıma,
Yel vurub əsdirir qalib Bayrağı.
Açılır qanadı Azərbaycanın,
Geyinib, bəzənib bayram sayağı...

Iki min yeddi yüz səksən üç igid,
Iki min yeddi yüz səksən üç heyrət!
Iki min yeddi yüz səksən üç oğul,
Torpağa can verdi, yurda fəxarət!..

Yenə öndə gedir qəhrəman Polad,
Sirli təbəssümü dodaqlarında.
Sağında, solunda cəm əsgərləri,
Fəxrlə addımlayır ali meydanda.

Baxır, iftixarla seyr edir İlham,
Ali Baş Komandan, Heydərin oğlu!..
Əsrin savaşını aparan kişi,
Yurdunu dünyaya tanıdan kişi...

Bir bax, dalağalanır mavi səmada,
Üçrəngli bayrağı Azərbaycanın.
Cənnət Qarabağda, ana yurdumda,
Başlanır növrağı Azərbaycanın!..

Qəhrəman Ordumuz düzülüb səf-səf,
Başını dik tutub nizamla geçir.
Düşmən bağrı yaran silah, texnika,
Qalib əsgərlərlə qol-boyun keçir.

Azadlıq Meydanı qaynar bir ocaq..
Danışır aramla İlham Əliyev:
"Nə vaxt baş qaldırsa bilsin erməni,
Yenə də taleyi belə olacaq..."

Ərdoğan səsinə səs verir onun,
Azərbaycan özgür, Qarabağ azad!..
Kardeşiz, kardeşdir ölkələrimiz,
Birdir yollarımız, sqoşadır bu ad...

Qəhrəman zabitlər, igid əsgərlər,
Bayram libasında keçir meydandan.
A qartal baxışlı, məğrur yerişli,
Özün Qarabağsan, Azərbaycansan!...

Ali Baş Komandan, yaşa, çox yaşa,
Ata vəsiyyətin yetirdin başa.
Qaytardı Şuşanı sahiblərinə,
Qəhrəman Ordumuz İlhamla qoşa....

## MÜBARİZ

### Proloq

Gözün aydın,Vətən!
Ataya şad xəbər gətirdi çapar-
Gözün aydın olsun, oğlun olubdu!..
Gözün aydın olsun, arxan olubdu!..
Duruldu gözlərdə bulanan sular...

Düşmən çəpəridir oğul,deyiblər,
Elə bu istəklə könül dinəcək.
Çapar, sən Vətənə gözün aydın de,
Sənə muştuluğu Vətən verəcək!..

..Azərbaycanın hər yerindən,
Əliabada yol gəlir.
Yollar durulub gəlir,
Yollar qovrulub gəlir.
İntizardan, qəhərdən
Yollar boğulub gəlir..
Bütün yollar kəsişir,
Yolçular heykəlləşir
Bir qadının önündə,

Bir ananın önündə,
Bircə adın önündə..
Bir dünyanın harayı.
Bir ata sükutunda!.
Yolçu, durub yol üstə
Bələdçi soraqlama.
Bütün yollar aparır
Bir evə, bir mənzilə.
Mən də haqdan izn alıb,
Buraya birbaş gəldim.
Sinəm altında ağrı,
Gözlərimdə yaş gəldim!..

***

Bu da Biləsuvar rayonu,
Bu da Əliabad kəndi..
Qollarını açıb qarşımıza çıxır
Geniş,səliqəli
Mübariz İbarahimov küçəsi.
Yolboyu müşayət edir bizi
qəhrəmanın darvazalar üstə vurulmuş
rəsmi...
Baxışları "Xoş gəldin"
söyləyir,
Baxışları bizi əyləyir...

-Qəhrəmanlar ölüm ilə ölməzlər,
Alın yazın mübarəkdir,Mübariz!
Bu Vətənə sənin təki hünərvər,
Cəsarətli,mərd oğullar gərəkdir!

Bu yolları tapdamısan nə qədər,
Bu yollarda böyüyüb boy atmısan.
Bir sevdaya meydan olub ürəyin,
Ömür boyu Vətən üçün ötmüsən.

Unutmasın, alacaqdır payını,
Kim ki, mənim Vətənimə daş atdı.
Vətən üçün kim qıydısa canını,
Vətən onu, o Vətəni yaşatdı....

***

...Bu da ki, Mübarızın,
Doğulduğu od-ocaq.
Oduyla oynadığı.
Od aldığı od-ocaq.

Bu mənzildən üç arzu.
Üç yol havalanırdı.
Burdan böyük həyata,
Üç oğul boylanırdı.

Hərənin öz arzusu.
Öz istəyi, xəyalı..
Bir az dəliqanlıydı,
Evin sonbeşik oğlu.

Balaca ürəyində.
Düşmənə kini vardı.
Qərarı qəti idi-
Hərbçi olacaqdı!...

## AĞAKƏRİM ATA İLƏ SÖHBƏT

...Körpəlikdən başqa idi Mübariz,
Onun ilə arxayındıq hər işdən.
Canıyanan, fərasətli uşaqdı.
Düzgünlüyə, həqiqətə aşiqdi.

Gözlərində qeyri-adi parıltı
İçindəki İlahinin nuruydu.
Hələ erkən duymuşdum ki,mən,onda
Müqəddəslik nişanəsi var idi.

Halallıqdı bütün fikri,niyyəti.
Qəbi pakdı, xoş idi xasiyyəti..

İncitməzdi özündən heç bir kəsi,
Uşaqlıqdan haqqın tərəfdarıydı...

Yadımdadır on üç yaşı olardı
Gördüm durub hönkür-hönkür ağlayır:
-"Canım ana, bax bu quzu öləcək,
Oğurlanıb qonşu bağa adladı..."

Buza döndüm bu saflığın önündə,
Söz tapmadım bu uşağa söyləyəm.
Onu bildim ki, Tanrıya yalvarım
Kaş zəmanə onu heç vaxt əyməyə...

Ömrü boyu bu saflığı saxlaya.
Sadiq qala amalına, andına.
Şərafətlə keçə ömür yolunu.
Şax yeriyə, kiçilməyə,sınmaya...

...Sözü boğazında qırılır bu dəm,
Gözlər göz yaşını saxlaya bilmir.
Ay "kişi ağlamaz"deyən kişilər,
İndi bu kişiyə söznüz nədir?!..

Məzuniyyətə çıxıb
Evə gəlib Mübarız.
Bu gün ata-ananın,
Sevinci çox,qəmi az.

Sübh tezdən,azan vaxtı
İbadət edir ata.
Namaz üstə əl açıb
Dua edir Allaha.

Yaralı torpağına
Şəfa umur Xudadan.
Bunun üçün keçir o
Lap doğma övladından:
"İlahi,üç oğlum vardır,
Biri sənə fəda olsun.
El üçün böyütdüm onu.
Bu Vətənə fəda olsun.."

Ağakərim heç bilmədi,
Bu sözləri necə dedi.
Nitq onundu, vəyh Tanrının.
Artıq fərman verilmişdi..

Eşidib Şamama ana,
məlul-məlul baxıb ona
dinməmişdi.
"Bu nə sözdü,axı özün
yola salıb Mübarizi,
gəlişinə yeddi qurban söyləmisən"
deməmişdi....

..Söz söyləyib, əhd eylədi,
Peymanı haqdan gəlmişdi.
Bu sözlərlə Mübarizin
Qəlbindən xəbər vermişdi...

***

Mübariz:
Şər ilə qovğadayam,
“Haqq məndədir, haqq mənəm!”
Vətənim bir gülüzar,
Çəmən mənəm, dağ mənəm!.
İmam Hüseyn nəsliyəm,
Ələm mənəm, tuğ mənəm.!
Yaralı Qarabağda
Toy büsatlı çağ mənəm.!
Cavanam, cavanmərdəm,
Dosta dost, düşmənimə
Polad kimi mən sərtəm!
Damğalı sinəsində
Sağalmayacaq dərdəm.
Mən Nəbinin oğluyam,
Mən Babəkin nəvəsi.
Ünvanım Azərbaycan,
Vətənim Yer kürəsi!

Arxayın ol, can Vətən.,
Yaddaşlardan getməmiş
Koroğlunun nərəsi.
Ürəklərdə yaşayır
Mixaylo əfsanəsi!
Nə qədər gəlir hələ
Türk,Azəri nəfəsi,
Açılacaq hələ çox
Qəhrəmanlıq səhfəsi.
Kəsiləcək düşmənin
Bütün bəndi-bərəsi!
Təki sən yaşa, Anam,
Təki sən var ol,Vətən!
Sizinlə əbədiyəm,
Həmişəlik sağam mən!!

Əyləşibdi bu səhər,
Ana bala üzbəüz.
Fəzarətlə söz açır
Ordumuzdan Mübariz:

-Ölkələr arasında
Tanınır məmləkətim.
Gün gündən qudrətlənir
Həm ordum, həm dövlətim.

Qorxaq erməni nədir,
Bizlə döş-döşə gələ!
Onun murdar əlləri,
Onun murdar ləpiri
Tezliklə, lap tezliklə
Yurdumuzdan çəkilər!
İnan bir gün gələcək
İrəvandan səsimiz.
Şuşada asılacaq
Üçrəngli bayrağımız!

Ali Baş Komandanın
Əmrinə müntəzirik.
Mənfur düşmənləri biz
Bir həmləyə əzərik!

Hər gün odlu güllələr
Sağa, sola çovuyur.
Bunun ilə qorxaqlar
Qorxusunu soyudur.

Erməni dığasını
Boz itimcə bilmərəm!
Qələbə çalmayınca
Ana,geri dönmərəm!!

***

Güllə sözü güllə kimi
Tutdu Şmama ananı.
Dizləri tab gətirmədi
Həyəcan sardı canını.

Gəldi gözləri önünüə,
Səngər, döyüş səhnələri.
Dəlib keçdi qulağını
Vıyıltıyla güllə səsi.

Ananın nəmli gözləri,
Kövrəltdi oğul qəlbini.
Göylər üçün yaranmışın
Göylərə bağlı qəlbini.

Yaxınlaşıb anasını
Sıxdı geniş sinəsinə.

Qarışdı qəlb çırpıntısı
Ana, bala bir-birinə..

Pıçıldadı:gedəcəyəm,
Düşmən bağrı dələcəyəm.

Bu torpağa rişə verib,
Şəhid tək göyərəcəyəm-
Arxamca su atma,ana.!.

Vətən eşqi damarımda,
Vətən himni dodağımda.
Eşidirəm ki, səsləyir
Hər gün şəhid torpağım da-
Arxamca su atma, ana!

Yol qalxır dağın başına,
Dolanır çərxin dişinə.
Bu mənim öz qismətimdi,
Qarışma Tanrı işinə-
Arxamca su atma, ana!

Çoxadandı Mübarizin
Gecə-gündüzü yoxdu.
Çöhrəsi bulud kimi,
Sinəsi dolu ahdı.

Bir az da azğınlaşır,
Ermənilər gecələr.
Gülləni yağış kimi
Yağdırır dörd tərəfə.

Çox vaxt boşa getsə də,
Bəzən cana da qıyır.
Cavan, gənc ömürləri,
Bir anda çəkib qırır.

Güllələrə qarışır
Bəzən söyüş səsləri.
İçni didib oyur
Qeyrətli əskərlərin.

Mübarizin daha çox
Damarında coşur qan.
Sinirini çeynəyir,
Sakitləşmir bircə an.

Düşüncələrə dalır
Çəkilir öz içinə.
And içir təkbaşına
Qalxa mübarizəyə:

Seyidəm,sığınmışam
Mən haqqın kölgəsinə.

Şəhid olsam da,Vətən,
Qanım halaldır sənə!..

Bu səngərdə keçirdiyi,
Son gecədi Mübarizin.
Ürəyi yuxadan yuxa,
Gözü nəmdi Mübarizin.

Son tapşırıqlarını alır,
Əsgərlər də komandirdən.
"Kimin nə çətinliyi var?"
O soruşur hər birindən.

Özünün əmək haqqından
Üç əsgərə pay ayırır.
Bilir ki, ailələri
Bir az imkansız sayılır.

Kürəyinə sığal çəkir
Təzə gələn bir əsgərin.
Oxuyur baxışlarından
Vətəninə sədaqəti.

Xəyalında canlandırır
Son döyüşü,qələbəni.
Sabahına inandığı,
Bütöv,bölünməz Vətəni.

Canından artıq sevdiyi
Bu Vətənlə halallaşır.
Atasıyla vidalaşır,
Anasıyla halallaşır..

Lap son anda bir məktub da
Yazır ata-anasına.
Onu bu Vətənə qurban
Deyən ata-anasına!..

***

Burax məni, burax,ana,
Burax gedim Aya sarı.
Məni içində əridən,
Əriyən dünyaya sarı...
Danmaq olmaz,haqdı ki,bu,
Qalxmaq olmaz,dağdı ki,bu.
Ay ana, ocaqdı ki,bu
Boylanır Mövlaya sarı..

Dolanım Yer kürəsini,
Udum haqqın nəfəsisni.
Qırım zülmün qəfəsini
Aparım Minaya sarı...

Səni yuxuda görmüşəm,
Çıxıb yuxundan gəlmişəm.
Qəm eyləmə ki, ölmüşəm,
Uçuram Tanrıya sarı...
Bu yolun o üzü ölüm,
Bu yolun sonu Vətəndi.
Əynimə geydiyim Bayraq,
Vücudum, ruhum Vətəndi!

Mən üzü qana gedirəm,
Can verib, can alasıyam.
Dünyaya insan gəlmişdim.
Dönüb Vətən olasıyam!

Atacağım hər addımım
Vətənə şan gətirəcək.
Bilirəm ana qəlbinə
Çiskin, duman gətirəcək...

***

Göylərə bax, can ana,
O qızaran dan mənəm!
Mübarizə yolunda,
Mən yenə mübarizəm!

Nə qədər ki, dardadı,
Bu Vətənə dayağam.
Avtomatım çiynimdə
Gecə-gündüz oyağam!..

***

Qarı düşmən, hələ dayan,
Görüşünə mən gəlirəm!
Tanrı haqqı üzərimdə,
İçimdə tufan gəlirəm!

Yetişdi qazilik vaxtı,
Allahın razılıq vaxtı,
Şəhidlik yoluna çıxdım,
Gözüm tutub qan,gəlirəm!

Arxa Vətən, ön Vətəndi,
Vətən Mənəm,Vətən Səndi.
Bitirməyə Vətən dərdin,
Azəribaycan, gəlirəm!!!

# EPİLOQ

Bir geri boylandı, bir önə baxdı,
Səngərdə şimşək tək çaxdı Mübariz!
Qeyrətiylə silahlanıb o gecə
Düşmənin önünə çıxdı Mübariz!

Aşdı bircə anad heyrət sədddini,
Anlatdı dünyaya onun həddini,
Gülləyə çevirib kin, nifrətini
Yağının köksünə sıxdı Mübariz!

Getdi son döyüşə o bilə-bilə,
Öc aldı,ucaldı cəsarətiylə.
Üçrəngli bayrağı öz əlləriylə
O gün Qarbağa taxdı Mübariz!

Ay ana, gözünün yaşını ud,bax
Başını dik saxla,lap uca tut bax,
Məğrur görkəminlə çək yağıya dağ-
Ölməyib, yaşayır, sağdı Mübariz!!..

## Mündəricat

ƏDƏBİ OVQATIMIZDA QARABAĞ
ZƏFƏRİ ........................................................................5

## Şeirlər

ŞƏHİD ƏSGƏR..........................................................23
MÜHARİBƏYƏ ŞEİR YAZMAYIN .....................24
BU DÜNYA DİNCƏLDİ BİR AZ..........................26
ÇARMIXDAKI AZADLIQ ...................................29
MƏN AĞAPPAQ BİR SABAHI ÇƏKİRƏM......30
ÜRƏYİ PARTLASIN TUMURCUQLARIN.......31
TÜRKÜ QORU İLAHİ.......................................33
BÖYÜK AZƏRBAYCAN
TORPAĞINDANAM!...........................................34

## Poemalar

ŞUŞA HAQQI ......................................................37
ZƏFƏR NƏĞMƏLƏRİ.........................................52
MÜBARİZ ..............................................................78

ŞAHNAZ ŞAHİN

*"Şuşa haqqı"*

İMZA

NƏŞRLƏR EVİ

**Direktor:** **Səbuhi Aslan**

**Dizayner:** **Veys Əliyev**

**Üz qabığı rəssamı:** **Sehran Allahverdi**

**Texniki redaktor:** **Hüseyn Məmmədov**

Çapa imzalanmışdır: 15.10.2022
Ofset çapı. Əla növ kağız
Tiraj: 300
Ünvan: Bakı, Mətbuat prospekti 529-cu məhəllə
Telefon: (012) 538-18-87,
(050) 263-16-16; (055) 263-16-17
email: imza_nesrler_evi@mail.ru